2023.- 9 dekabr, № 269.- S.7.

AZƏRBAYCAN

# Növbəti prezident seçkisi bütün ölkə ərazisini əhatə edəcək

"Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, 2024-cü il fevralın 7-də ölkədə növbədənkənar prezident seçkiləri keçiriləcək. Bu, müstəqil Azərbaycan tarixində ilk belə seçki olacaq ki, işğaldan azad olunmuş şəhər və kəndlərimiz də daxil olmaqla, bütün ölkə ərazisini əhatə edəcək. Həmçinin bu seçkiləri zəfər seçkisi kimi də qiymətləndirmək olar. Çünki budəfəki prezident seçkiləri illərlə həsrətini çəkdiyimiz əziz Şuşada, Xankəndidə, Laçında, Xocalıda, Zəngilanda, Cəbrayılda, Kəlbəcərdə, Füzulidə və digər rayonlarda - Azərbaycan bayrağının şərəflə dalğalandığı bütün ərazilərdə keçiriləcək".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş təcrübədir. Sadəcə olaraq, seçkilər növbədənkənar keçirildiyi halda vətəndaşlar öz siyasi iradələrini vaxtından əvvəl ifadə edirlər.

Arzu Nağıyevin sözlərinə görə, Prezident İlham Əliyev qalib lider kimi xalqımızın etimadını qazanıb. Bu gün hər bir azərbaycanlının qürurla səsləndirdiyi "Qarabağ Azərbaycandır!" şüarı ölkənin bütün bölgələrində quruculuq işləri ilə müşayiət olunur. Demək olar, bütün sahələrdə davamlı islahatlar aparılır. Bu gün Azərbaycan xalqının öz Prezidentinə dərin inamı və ehtiramı var. İndiyə qədər dediyi sözlərinin üstündə duran Ali Baş Komandan ölkəmizin siyasi və iqtisadi müstəqilliyini təmin edib.

Deputat qeyd edib ki, bizim siyasi sistemi gücləndirməkdə israrlı olmağımız qələbələrimizi həzm edə bilməyən qüvvələr üçün əsl dərsdir: "Ölkədə bu istiqamətdə ciddi addımlar atılır, seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün lazımi şərait yaradılır. Nəzərə almaq lazımdır ki, bu seçkilərdə ölkədə siyasi partiyaların qeydiyyata alınma prosesi tamamlanıb. Elə bu yanaşmanın özü ölkədə rəqabət mühitinin təmin edilməsini göstərir".

Arzu Nağıyev deyib ki, növbədənkənar prezident seçkilərində hər bir namizədə Seçki Məcəlləsinə əsasən bərabər imkanlar veriləcək. Məcəlləyə uyğun olaraq, bütün namizədlər təbliğat və təşviqat prosesində mediadan bərabər şəkildə istifadə edə biləcəklər. Ümumiyyətlə, əksər ölkələrdə 2024-cü ilin "seçki ili"nə çevrilməsi həm də qlobal proseslərdən qaynaqlanır. Ona görə də Prezident tərəfindən belə bir sərəncamın imzalanması təqdirəlayiq hal kimi dəyərləndirilməlidir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***